***Azərbaycan 2021-ci ildə 2030-cu ilədək bir dövrü əhatə edəcək keyfiyyətcə yeni strateji mərhələyə daxil olub. Bu mərhələdə Prezident İlham Əliyevin rəhbərliyi ilə iqtisadi strategiyanın həyata keçirilməsi, dərin islahatların davamlılığının təmin olunması, ölkənin iqtisadi qüdrətinin daha da artırılması, müasir həyat standartlarına əsaslanan yüksək sosial rifah cəmiyyətinin inkişafı və bütün bunlarla yanaşı, Qarabağ və Şərqi Zəngəzurun sabitlik, tərəqqi məkanına çevrilməsi kimi məsələlər xüsusi diqqət mərkəzində olacaq. Lakin burada onu da vurğulayaq ki, indiyədək də bu istiqamətlərdə genişmiqyaslı tədbirlər reallaşdırılıb, islahatlar gerçəkləşdirilib, nəticədə parlaq uğular qazanılıb. Amma Ermənistanın 30 il ərzində torpaqlarımızın işğal altında saxlanması ölkəmizin ümumi iqtisadi inkişafına müəyyən problemlər yaradıb. Məsələn, Naxçıvan Muxtar Respublikasının Azərbaycanla magistral və dəmir yolları bağlantısı kəsildiyindən bu qədim əzəli-əbədi yurdumuzun sürətlə müasirləşməsində çətinliklər nəzərə çarpıb.***

# 2021-ci il: Qlobal təşəbbüslər, real nəticələr



Respublikamızın ötən illərdə olduğu kimi, 2021-ci ildə də mühüm qlobal təşəbbüslərdə fəal iştirakı yerli iqtisadi islahatların gedişini sürətləndirib, səmərəliliyini artırıb. Azərbaycanın BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinə qoşulması xüsusi önəm daşıyıb. Dövlətimizin başçısı bununla əlaqədar çıxışlarının birində deyib: “Azərbaycan dünyada 2030-cu il Gündəliyinin icrası ilə bağlı 3-cü Könüllü Milli Hesabatını təqdim edən 12 ölkədən biri, öz regionunda isə ilk dövlətdir.

Dayanıqlı İnkişaf Məqsədlərinin nailiyyət indeksi üzrə mümkün 100 xaldan 72,4 xal toplayan Azərbaycan regionda ən yaxşı nəticə göstərərək 2021-ci il üzrə Dayanıqlı İnkişaf Hesabatında 165 ölkə arasında 55-ci yeri tutmuşdur. Hesabatda Azərbaycanın yoxsulluğun azaldılması, səhiyyə, qidalanma, qadınların əmək bazarında iştirakı, təmiz su və sanitariya, enerjiyə əlçatanlıq, internet istifadəsi, nəsli kəsilmək təhlükəsi olan canlıların mühafizəsi, əhalinin rifahının yaxşılaşdırılması, şəhər və yaşayış məntəqələrinin dayanıqlı inkişafı sahələrində əldə etdiyi tərəqqi vurğulanır.

Azərbaycanın Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsindəki fəal mövqeyindən danışarkən, qeyd edə bilərik ki, respublikamızda pozitiv demoqrafik artım şəraitində yoxsulluq səviyyəsinin əhəmiyyətli dərəcədə azaldılması bu istiqamətdə həyata keçirilən tədbirlərin, eləcə də, BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinin daim diqqət mərkəzində saxlanmasının məntiqi nəticəsidir. Yeri gəlmişkən, Dayanıqlı İnkişaf Məqsədləri dünyada həyat səviyyəsini yüksəltmək, bərabərsizliyi azaltmaq, dayanıqlı iqtisadi inkişafa təkan vermək kimi vəzifələrin icrasını nəzərdə tutur.

Bu məqamda xatırladaq ki, uğurla reallaşdırılan inkişaf strategiyası nəticəsində Azərbaycanda yoxsulluq son 18 ildə 49 faizdən 5 faizə enib. “Bərabərsizliyin azaldılması” məqsədinə gəlincə, Azərbaycan gəlirlərin ədalətli bölgüsünün səviyyəsinə görə dünya üzrə ən yüksək pillələrdə qərarlaşıb.

**(ardı 9-cu səhifədə)**

# 2021-ci il:

# Qlobal təşəbbüslər, real nəticələr



(əvvəli 1-ci səhifədə)

Burada belə bir statistik göstəricini də qeyd etmək yerinə düşər ki, dövlət büdcəsi sosial və iqtisadi inkişafyönümlü olmaqla, son 18 ildə 4 dəfədən çox artaraq onun həcmi ümumi daxili məhsulun 35 faizinə çatıb. Azərbaycan ortagəlirli ölkələr sırasına daxil olub. Müqayisə üçün xatırladaq ki, dünya praktikasında ortagəlirli dövlətə çevrilməyə orta hesabla 11 il vaxt sərf edilib. Hazırda Azərbaycan dünyada orta-yuxarı gəlirli 56 ölkədən biri kimi qərarlaşıb.

Dövlətimizin başçısının rəhbərliyi ilə Azərbaycanın həyata keçirdiyi nəqliyyat-logistika və infrastruktur layihələri də vahid məqsədə-ölkəmizin, eləcə də beynəlxalq iqtisadiyyatın inkişafına xidmət edir. Bu baxımdan, son illər ərzində gerçəkləşən Bakı–Tbilisi–Qars, Astara–Astara dəmir yolu və Ələt Azad İqtisadi Zonasının təkcə iqtisadi infrastruktur layihələri deyil, həm də uzunmüddətli geo-iqtisadi strategiyaların tərkib hissəsi kimi mühüm önəm daşıması artıq beynəlxalq aləmin diqqət mərkəzindədir.

Şimal-Cənub və Şərq-Qərb nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşən Azərbaycan hazırda regionun mühüm nəqliyyat və logistika mərkəzi kimi tanınır. Avropa İttifaqı ölkələri ilə bu sahədə uğurlu əməkdaşlıq həyata keçirilir. Ölkəmizin ərazisindən keçən Şərq-Qərb, Şimal-Cənub və Cənub-Qərb beynəlxalq nəqliyyat dəhlizləri yükdaşımalar üçün məsafə və müddət baxımından olduqca əlverişlidir. Bakı-Tbilisi-Qars dəmir yolu, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, Azərbaycanın Xəzər dənizində ən böyük ticarət donanması, müasir gəmiqayırma zavodu, müasir standartlara cavab verən avtomobil yolları həmin nəqliyyat dəhlizlərinin imkanlarını daha da genişləndirir. Bu imkanlar fonunda tranzit yüklərin həcmi də getdikcə əhəmiyyətli dərəcədə artır.

Azərbaycan rəhbərliyi ölkəmizin coğrafi mövqeyi və yuxarıda qeyd olunan nəqliyyat-tranzit infrastrukturundan səmərəli istifadə etməklə, regionda və dünyada yük daşımalarında mövqeyinin daha da yüksəlməsinə nail olmaq üçün ciddi iş aparır. Təbii ki, bu istiqamətdə dünyanın ikinci iqtisadiyyatına malik olan Çin ilə əlaqələr xüsusi əhəmiyyətə malikdir.

Dünyanın ən böyük ixracatçısı və ən böyük ikinci idxalçı ölkəsi olan Çin özünün xarici ticari-iqtisadi əlaqələrini daha da dərinləşdirməkdən ötrü irəli sürdüyü “Bir kəmər, bir yol” strategiyası Azərbaycan üçün də yeni əməkdaşlıq imkanları yaradır. Azərbaycan Çinin bu yeni təşəbbüsünün əməkdaşlıq, birgə inkişaf üçün yaratdığı imkanları düzgün qiymətləndirən, strategiyanı dəstəkləyən ilk ölkələrdən biri olub.

Xatırladaq ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Qarabağın azad edilməsindən sonra Azərbaycanda dövlət quruculuğu, milli iqtisadi inkişaf və ictimai həyat yeni mərhələyə daxil olub. İndi respublikamızın regional güc mərkəzi olaraq mövqelərinin daha da möhkəmləndirilməsi, iqtisadiyyatın daha da gücləndirilməsi qarşıya əsas vəzifə kimi qoyulub.

Qeyd edək ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə son 18 ildə Azərbaycanda qeyri-neft sektorunun inkişafının təmin olunması, iqtisadiyyatın müxtəlif sahələrinin şaxələndirilməsi, ölkəmizin ixrac potensialının artırılması, xarici investisiyanın cəlb edilməsi, biznes və investisiya mühitinin daha da yaxşılaşdırılması istiqamətində çox vacib layihələr icra olunub. Pandemiyanın dünyada yaratdığı böyük iqtisadi və maliyyə çətinliklərinə baxmayaraq, Azərbaycanda bu proseslər 2021-ci ildə də uğurla davam edib. Ələt Azad İqtisadi Zonasının yaradılması da bu proseslərə önəmli təsir göstərib.

Ölkəmizin qoşulduğu mühüm qlobal təşəbbüslər sırasında rəsmi Bakı Paris İqlim Sazişini ratifikasiya edərək, üzərinə könüllü öhdəlik götürüb. Bununla bağlı respublikamızın ümumi enerji istehsalında bərpa olunan enerjinin payının artırılması istiqamətində müəyyən layihələrin icrasına başlanılıb. İşğalçıdan təmizlənən Qarabağ və Şərqi Zəngəzurun “Yaşıl enerji zonası” elan olunması çərçivəsində 2021-ci ildə bu bölgədə xeyli iş görülüb.

Ümumiyyətlə, Azərbaycan bərpaolunan enerji mənbələri ilə zəngin resurslara malik ölkələrdəndir. Günəş və külək enerjisi potensialının səmərəli istifadəsini təmin etmək üçün 2030-cu ilə qədər elektrik enerjisi istehsalında bərpaolunan enerji mənbələrinin payının 30 faizə çatdırılması mühüm vəzifə olaraq müəyyənləşdirilib. Həmçinin 2030-cu ilədək təqribən 1500 meqavat həcmində yeni gücün istifadəyə verilməsi nəzərdə tutulub. Bu vəzifənin məhz özəl investisiyalar hesabına reallaşdırılması nəzərdə tutulub. Artıq Avropa Yenidənqurma və İnkişaf Bankı ilə birlikdə enerji mənbələrindən istifadə sahəsində özəl investisiya hesabına kiçikhəcmli layihələrin həyata keçirilməsinə başlanılması planlaşdırılıb.

Bununla yanaşı, bu sahədə pilot layihələrin də həyata keçirilməsinə başlanılıb. Səudiyyə Ərəbistanı Krallığının “ACWA POWER” şirkəti ilə 240 meqavat gücündə külək elektrik stansiyasının tikintisi ilə bağlı müqavilələr imzalanıb. Layihənin reallaşdırılmasına ümumilikdə 300 milyon ABŞ dolları həcmində investisiya qoyuluşu, il ərzində isə 1 milyard kilovat saata yaxın elektrik enerjisinin istehsalı nəzərdə tutulub.

Bu layihənin icrası nəticəsində il ərzində 200 milyon kubmetr qaza qənaət ediləcək, habelə ətraf mühitə atılan tullantıların həcmi ildə 400 min tonadək azaldılacaq. Layihənin reallaşdırılması, həmçinin müasir istehsal və xidmət sahələrinin yaranmasına, yeni iş yerlərinin açılmasına töhfə verəcək.

***Vaqif BAYRAMOV, “Xalq qəzeti”***